**UOT 782/785**

***Aygül Əhmədova***
***Azərbaycan Milli Konservatoriyasının doktorantı***
***AZ1073, Bakı, Ələsgər Ələkbərov 7***
***E-mail**: etno.aygul@mail.ru*

# QARABAĞ MUSİQİ FOLKLORUNDA BOYAQÇILIQ NƏĞMƏLƏRİNİN TİPOLOJİ JANR XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Qarabağ bölgəsinin musiqi folklorununda əmək nəğmələri xüsusi əhəmiyyətə malikdir. Məqalədə əmək nəğmələrinin tədqiqi məqsədilə təşkil olunan ekspedisiya səfəri zamanı toplanılan boyaqçı nəğmələrinin janr təsnifatı həmçinin, musiqi dilinin və poetikasının özəllikləri təhlil olunur.

**Açar sözlər:** Qarabağ, musiqi folkloru, informant, janr, boyaqçı, əmək nəğmələri, bayatı.

Qarabağ bölgəsinin musiqi folklor janr sistemində əmək nəğmələrinin özünəməxsus yeri vardır. Bu nəğmələrin sistemli şəkildə toplanılması, kataloqlaşdırılması və tədqiqi Azərbaycan autentik musiqisinin özünəməxsus cəhətlərinin öyrənilməində, Qarabağ musiqi dialektinin özəlliklərinin üzə çıxarılmasında müstəsna rolu vardır. Digər tərəfdən bu janrın Qarabağın coğrafi şəraitindən asılı olaraq məhəlli musiqi folkloru kontekstində üslub, ifa və janr xüsusiyyətləri, digər regionlarla qarşılıqlı əlaqə və təsir problemlərinin araşdırılmasını da etnomusiqişünaslıqda aktuallıq kəsb edən problemlər sırasına daxil etmək olar.

Regionda aparılan ekspedisiyalar zamanı belə qənaətə gəlmişik ki, digər musiqi folkloru janrlarında olduğu kimi, bu janra aid olan nümunələr üçün də çoxvariantlılıq xasdır. Belə ki, hər bir söyləyici oxuduqları nümunələrə sərbəst şəkildə müdaxilə edir - mətni öz dialektinə uyğun formada dəyişdirərək yeni formaya salır ki, bu da polivariantlılığa gətirib çıxarır.

Qarabağ ərazisində yayılan nəğmələrin atlasını yaratmış olsaq, arxaik nəğmələrin bu ərazidə hələ də qorunub saxlandığını müşahidə edərik. Ekspedisiya səfərlərimizin əsas obyektini əmək nəğmələrinin toplanılması təşkil edirdi. Ümumiyyətlə, xüsusi elmi ədəbiyyatda dəfələrlə qeyd olunduğu kimi, musiqi folklorumuzda əmək nəğmələri janrı öz funksional təyinatı ilə seçilən janrdır. “Bu

nəğmələrə niyə əmək nəğmələri deyilir? Bu nəğmələr əmək prosesində ifa edilir. Onu oxumaqda əsas məqsəd əməyi yüngülləşdirmək, onu əməyin ritminə uyğunlaşdırmaq olmuşdur" [2, s. 7]. Geniş anlamda əmək nəgmələrinə əkinçi, sayaçı, sağın, ovçu, cəhrə, pambıqçı, hana, boyaqçı və s. nəğmələr daxildir.

Məqaləmizin tədqiqat obyektini təşkil edən boyaqçı nəğmələrinin mətnində barama qurdu vasitəsilə hazırlanan iplərin boyanması texnikası, üsulları haqqında məlumat verilir. "Azərbaycanda qədim zamanlardan becərilən və xüsusi əhəmiyyət kəsb edən texniki bitkilərdən biri də boyaq kökü bitkisi olmuşdur. Yabanı halda bitdiyini və toxuculuqda rəng üçün geniş istifadə edildiyini nəzərə alsaq, onun bu ərazidə hələ eramızdan çox-çox əvvəl becərildiyini ehtimal etmək olar" [1, s. 186]. Qarabağ bölgəsində Füzuli, Ağdam, Şuşa və digər rayonlarda ipləri boyuyan xüsusi boyaqçılar sənətkarlar var idi. Hana toxunması ilə məşğul olan etnoforlar bizə söylədilər ki, onlar özləri də ipləri əksər hallarda boyaq otu dedikləri biyan vasitəsilə boyamış və bu zaman da zümzümə edirmişlər.

Topladığımız boyaqçı nəğmələrinin təhlilinə keçməzdən əvvəl struktur-semiotik paradiqma kontekstində musiqi dilinin bəzi metodoloji prinsiplərinə nəzər yetirək. "Musiqi mətnlərinin sintaktik təhlili seqmentasiyadan, onların tərkib hissələrə - seqmentlərə bölünməsindən başlanır [3, s. 88]. Musiqi mətnləri struktur səviyyəsi- seqmenti sintaqmadır. Sintaqma dilçilik terminidir. Sintaqma şərti olaraq SNT- yazılır. "Sintaqma ən azı iki seqmentin uzlaşmasından əmələ gələn vahid quruluşdur" [4, s. 52]. Sintaqmada müəyyən bir fikir ifadə olunur. "Epik oxumaların daha yüksək musiqi təşkilatı səviyyəsi sayılan sintaqmaların semantik potensialı sonsuzdur" [4, s. 149].

Şifahi ənənəli Qarabağ musiqi folklorunun janr özünəməxsusluğunu və zənginliyini araşdırmaq məqsədilə boyaqçılıqla əlaqədar yaranan nəğmələrin struktur-semantik məzmununa diqqət yetirək. Aşağıdakı nümunə (not nümunəsi № 1) Füzuli rayon Kərimbəyli kənd sakini Rüstəmova Samaya tərəfindən ifa olunmuşdur:

## Boyaq nəğməsi № 1

oxudu: Rüstəmova Samaya
nota köçürən: Səfixanova Aygül




Təhlilə cəlb etdiyimiz boyaqçı nəğməsinin məqam-intonasiya məzmunu lya diyez mayəli segah məqamına əsaslanır. Nümunənin metr-ritmik əsasını təhlil edərkən

qeyd etmək lazımdır ki, musiqi dilinin bu səviyyəsinin təşkilində formulluq mühüm rol oynayır. Belə ki, təhlil nəticəsində aydın olur ki, nəğmənin bütün sintaqmalarının əsasında eyni ölçü və eyni metr - ritmik modus durur:




Bu modelin əsasında yeddi heca-not durur ki, bu da bayatı poetik formanın tipoloji xüsusiyyətlərindən biridir. II-hissəli melobənd dörd sintaqmadan təşkil olunmuşdur. Boyaq nəğməsinin intonasiya quruluşu aşağıdakı təqdim etdiyimiz cədvəldə öz əksini tapmışdır (cəd 1):

| SNT h | SNT | hissə |
|---|---|---|
| ab\| $a^1 b^1$ \| $a^1 b^1$ \| $a^1 b^1$ | A $A^1 A^1 A^1$ | A $A^1$ |

Boyaqçı nəğmə janrının digər nümunəsi Cəbrayıl rayon Xubyarlı kənd sakini, hal-hazırda Bakı şəhərində məcburi köçkünlük həyatı yaşayan Şəfiqə Hüseynovanın ifasından nota alınmışdır:

## Boyaq nəğməsi № 2

oxudu: Hüseynova Şəfiqə
nota köçürən: Səfixanova Aygül




Bu nümunənin metr-ritmik təşkilində də modal ritmikanın səciyyəvi xüsusiyyətləri təzahür edir. Təhlil etdiyimiz nəğmə sol diyez mayəli segah məqamına əsasılanır. Nəğmənin intonasiya özəllikləri təqdim olunan cədvəldə öz əksini tapır (cəd. 2):

| SNT h | SNT | hissə |
|---|---|---|
| ab\| $a^1$ c\| $a^1 b^1$ \| $a^1 c^1$ | A B $A^1 B^1$ | A $A^1$ |

Füzuli rayon Arazyağlıvənd kənd sakini Zabış Qocayevanın oxuduğu boyaq nəğməsinə nəzər yetirək:

# Boyaq nəğməsi № 3

oxudu: Qocayeva Zabış
nota köçürən: Səfixanova Aygül




Etnoforun oxuduğu hər iki (a və b) nümunə do diyez mayəli segah məqamına əsaslanır. “İplərim al qaradır” sözləri ilə başlanan və $\frac{6}{8}$ vəznə əsaslanan boyaq nəğməsinin heca-not modeli belədir: 

Təhlil etdiyimiz nəğmənin məqam-intonasiya məzmunu aşağıdakı cədvəldə öz əksini tapmışdır (cəd 3):

| SNT h | SNT | hissə |
|---|---|---|
| ab\| $a^1$ $b^1$\| $a^1b^1$ \| c $a^1$ | A $A^1A^1$B | A B |

# Boyaqçı nəğməsi

oxudu: Qocayeva Zabış
nota köçürən: Səfixanova Aygül




Bu nümunənin poetik mətninin quruluşu (aaba) bayatı jannrına uyğun olsa da, onun sonuncu melomisrası 8 hecadan ibarətdir. Qeyd etmək lazımdır ki, belə hallara Azərbaycan xalq mahnılarının digər janrlarında da rast gəlmək mümkündür. Təhlil etdiyimiz nümunənin heca-not modeli etnoforun ifa etdiyi digər boyaq nəğməsinin (№ 3a) heca-not quruluşuna uygundur.

Nümunənin metr-ritmik təşkilində müşahidə olunan vəzn dəyişkənliyi dolayısı ilə onun modal ritmika prinsiplərinə əsaslandırdığını sübut edir. Təhlil etdiyimiz nümunənin intonasiya quruluşu aşağıdakı sxemdə öz əksini tapmışdır (cəd 4):

| SNT h | SNT | hissə |
|---|---|---|
| ab\| $a^1$ $b^1$\| $a^1 b^1$ \| c $b^1$ | A $A^1 A^1$ B | A B |

Beləliklə, Qarabağın arxaik musiqi folklorunun tədqiqi onun janr rəngarəngliyi, növ və üslub xüsusiyyətlərinin zənginliyini aşkar edir. Bu isə bir daha sübüt edir ki, Azərbaycanın Qarabağ bölgəsi xalq musiqi xəzinəsi, milli mədəniyyətin, söz sənətinin erkən yarandığı və inkişaf etdiyi müqəddəs bir məkandır.

**Ədəbiyyat:**

1. Azərbaycan etnoqrafiyası. III cilddə. I cild, B.: Elm, 1988, s 456 .
2. ƏliyevRamil. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı: 2012, s. 167.
3. Гошовский В.Фольклор и кибернетика//Сов.музыка.- 1964, №12.с.83– 89.
4.Дадашзаде К. Знаковая система дастана. Баку, 2004, 291 с.

**Айгюль Ахмедова**

**Типологические особенности жанра музыкального красильщика в карабахском музыкальном фольклоре**

**Резюме**

Трудовые песни имеют особое значение в Карабахском музыкальном фольклоре. В статье анализируются материал, собранный автором во время фольклорных экспедиций.

**Ключевые слова:** Карабах, музыкальный фольклор, информант, жанр, красильщик, трудовые песни, баяты.

**Aygul Ahmadova**

**Typological features of genre of music dyer in Karabakh music folklore**

**Summary**

Labor songs have a special significance in Garabagh musical folklore. In the article is analysed material collected during expeditions.

**Keywords:** Karabakh, music folklore, informant, genre, dyer, labor songs, bayati.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.05.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kamilə Dadaşzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**